# İnsan və şəxsiyyət amilini ucaldan lider

Ötən 10 il ölkə həyatı üçün yüksək səviyyədə uğurlu olmuşdur. Prezident cənab İlham Əliyev ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu çoxşaxəli islahatları uğurla davam etdirərək hər bir Azərbaycan vətəndaşının mənafeyinə xidmət edən uğurlu iqtisadi siyasət həyata keçirmişdir. Ötən 10 ildə müstəqil Azərbaycan iqtisadi cəhətdən möhkəmlənmiş, sosial-iqtisadi yüksəliş, ilk növbədə insanların gündəlik həyatında özünü daha qabarıq şəkildə birüzə vermişdir. 2003-2013-cü illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar cənab İlham Əliyevin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə söykəndiyini deməyə ciddi əsaslar verir. 2003-2013-ci illərdə ölkədə ümumi daxili məhsulun orta illik artımı 13 faiz artmış, qeyri-neft sektorunda bu göstəricisi 10,6 faiz təşkil etmişdir. Bu dövrdə ölkənin iqtisadiyyatı 3 dəfədən çox, dövlət büdcəsi 19 dəfə, strateji valyuta ehtiyatları 29 dəfə, iqtisadiyyatın kreditləşməsi 24,5 dəfə artmışdır. Əhalinin gəlirləri, orta aylıq əməkhaqları və pensiyaların orta məbləği müvafiq olaraq 6,9, 6,3 və 6,4 dəfə yüksəlmişdir. Bu müddətdə yoxsulluq səviyyəsi 44,7 faizdən 5,6 faizə, işsizliyin səviyyəsi 28 faizdən 5,2 faizə enmişdir. Əldə olunmuş dinamik iqtisadi artımın nəticəsidir ki, Azərbaycanın «yuxarı orta gəlirli» ölkələr sırasında mövqeyi daha da möhkəmlənmişdir.

Prezident İlham Əliyev hələ 2003-cü ildə verdiyi bütün vədləri inamla həyata keçirmiş, ölkədə 1 milyondan çox iş yeri açılmış, çadır düşərgələri ləğv olunmuş, sosial problemlərinin böyük qismi həllini tapmış, işsizliyin, yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm uğurlar əldə olunmuşdur. Son 10 ilin ən mühüm göstəricilərindən biri də Azərbaycanın dünyada ən az borcu olan ölkələr sırasında qərarlaşmasıdır. Beynəlxalq maliyyə qurumlarının hesabatları göstərir ki, nəinki inkişaf etməkdə olan, hətta inkişaf etmiş bir çox dövlətlərin də xarici borcu idarəolunmaz həddə çatmışdır. Azərbaycanın strateji valyuta ehtiyatları 2013-cü ilin birinci yarısında daha da artaraq 48 milyard ABŞ dollarına çatmışdır.

Müqayisə üçün qeyd etmək lazımdır ki, Ermənistan Respublikasının xarici borclarının məbləği 2013-cü il üçün müəyyənləşdirilmiş dövlət büdcəsini xeyli üstələşmişdir. Kənar donor yardımları olmasa, cari büdcə vəsaiti bu ölkənin əhalisinin minimal ehtiyaclarının ödənilməsinə kifayət etməyəcəkdir. Yaranmış böhran vəziyyətinin, kütləvi narazılığın artaraq sosial partlayış həddinə çatdırılmasının əsas səbəbləri rəsmi Yerevanın yürütdüyü işğalçılıq siyasəti, qonşu dövlətlərə əsassız ərazi iddiaları üzündən regional və qlobal layihələrdən kənarda qalması, iqtisadi tərəfdaş kimi nüfuzunu itirməsi, xarici investisiyaların qoyuluşu üçün əlverişsiz ölkəyə çevrilməsidir. Ölkə başçısı cənab İlham Əliyev yaranmış situasiyanı belə dəyərləndirmişdir:

**«Bu gün Azərbaycan iqtisadiyyatı güclü iqtisadiyyatdır və bizim gözəl gələcəyimiz vardır. Ermənistanın iqtisadiyyatı tənəzzülə uğrayır, bu ölkənin gələcəyi böyük sual altındadır. Çünki onların işğalçı siyasəti özlərini bu vəziyyətə qoyubdur. Nə qədər ki, bu mübahisə davam edəcəkdir, onların vəziyyəti daha da ağırlaşacaqdır. Biz isə öz növbəmizdə bütün imkanlardan istifadə edib gələcəkdə də Ermənistanı sıxışdırmalıyıq».**

Qeyd etmək lazımdır ki, sosial yönümlü siyasət son 10 ildə Azərbaycanın milli inkişaf yolunu səciyyələndirən mühüm istiqamətlərdən birinə çevrilmişdir. Dövlət başçısı insan və şəxsiyyət amilini ucaltmaqla hər bir vətəndaşın maraqlarının dövlət üçün üstün olduğunu nümayiş etdirmişdir. Prezident İlham Əliyevin hər iki prezidentlik dövrüunun ən böyük uğurlarından biri də Azərbaycan kəndinə şəhər simasının gətirilməsi olmuş, cənubdan şimala, şərqdən qərbə çoxsaylı yaşayış məntəqələrində yeni sosial-mədəni obyektlər ən müasir tələblərə cavab verən yeni məktəblər, səhiyyə ocaqları, körpülər, yollar tikilmişdir. Hazırda Azərbaycanın bütün rayonlarında su və kanalizasiya sistemi yenidən qurulur, qazlaşdırma işi başa çatdırılır. Bütün bunlar regionlarda mənəvi ab-havanın yaxşılaşmasına səbəb olmaqla, Azərbaycan insanının dövlətə, onun rəhbərinə etimadını, sevgi və rəğbətini daha da artırır.

Dövlət başçısı İlham Əliyev ötən 10 ildə dünya siyasətinə əsaslı təsir imkanları olan dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, inkişaf etdirmək, beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeylərini gücləndirmək istiqamətində sistemli fəaliyyət göstərir. **«Azərbaycanın coğrafi mövqeyi özü onun xarici siyasətini müəyyən edir»**—deyən dövlət başçısı respublikamızın necə həssas və mürəkkəb geosiyasi məkanda yerləşməsinin fərqindədir və özünün xarici siyasət doktrinasında bölgənin özəlliklərini nəzərə alır.

Bir sözlə, cənab İlham Əliyevin son 10 ildəki fəaliyyəti ölkənin sosial, iqtisadi, intellektual-mənəvi yüksəlişinə təkan verməmiş, eyni zamanda, dünya arenasında layiqli yer tutmasını, regionun aparıcı dövlətinə çevrilməsini təmin etmişdir.

**Aslan CƏLİLOV.**

---

Qərar № 19/113

## Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizəd kimi qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2013-cü il oktyabrın 9-da keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 10 avqust 2013-cü il tarixli 9/68 saylı qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2013-cü il avqustun 20-də partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 100-cü, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4, 19.14, 28.2, 28.4, 54, 58, 59 və 60-cı maddələrinə əsasən **qərara alır:**

1. Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyev 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizəd kimi qeydə alınsın.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

***25.08.2013***

---

## Yeni təyinat

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Vahid Nəriman oğlu Sadıqov Qəbələ Rayon Məhkəməsinin sədri təyin olunmuşdur.

## Təbrik edirik

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2012--2013-cü tədris ilində keçirilmiş «Ən yaxşı ümumtəhsil məktəbi» müsabiqəsi qaliblərinin mükafatlandırılması haqqında sərəncam imzalamışdır.

Mükafatlandırılanlar arasında Qəbələ şəhər 4 nömrəli tam orta məktəb və Vəndam qəsəbə 1 nömrəli tam orta məktəb də vardır.

Yüksək mükafata layiq görülən nümunəvi ümumtəhsil ocaqlarının pedaqoji kollektivlərini təbrik edir və onlara təhsil sahəsində daha böyük uğurlar arzulayırıq.